# Folklor xalq həyatının əks-sədasıdır

Oyun uşaqlığın ən əziz parçasıdır və onlara inkişafın çox önəmli faydalarını təqdim edir, valideynlərə uşaqları ilə tam şəkildə ünsiyyət qurmaq imkanı verir. Oyun hər birimiz uşaq olarkən başlayır və heç vaxt da dayanmır! Oyun oynamağı uşağın gündəlik rejiminə daxil edərək onlara oynamaq üçün zaman ayırmaq hər yaşda gərəklidir. Lakin müasir kompüter və televizorlar uşaqların oyun oynamaqdan zövq ala bilmək imkanını azaldıb. Fatimə Bədəlovanın qənaətinə görə, oyun oynamaq öyrənməyin əsas hissəsi olaraq uşaqlara böyükləri yamsılamaqla yeni bacarıqlar əldə etməyə, aktiv zehni məşğuliyyət kimi onların kreativliyini və fantaziyalarını inkişaf etdirməyə imkan verir.

Güney mahalında uşaqların oynaya biləcəyi pil dəstə, tor ərəbi, beşdaş, mərdi-mərdi, itdi qusdu, qeyş qapdı, qondum-qondum, pişək keçdi, turna vurdu, təskənd cüt, cola atdı, göydə nə var, donbalan pistan, gözü bağlı, gizlənqaç, mazalan saldı, naqqıçli, qovalaqaçdı, qeyqaladüzmə, astalan pistan, kufgetmə, dolanbacı yağlı bacı, qeyqala ha qeyqala, döndü yandı, göydə nə var, göy ulduzu, torpaq beli sındırma, tikan zuğu, naqqıdınlı, pul mızdırma, qonaq bacı, saqqız oyunu, gül oyunu, qondum küsdüm, yumurta çaqqışdırma, məntəş dığırlama, at minmə, aşıq oyunu, qartopu, yumurta oyunu, köşkü balaban... və s. kimi çoxlu sayda oyun növləri yaradılmışdır. Hətta uşaqlar anaları ilə barmaqları vasitəsilə də oyun oynayırlar. Belə ki, analar uşaqlarının barmaqlarını əllərində tutaraq deyirlər: baş barmaq başala barmaq, uzun hacı kiçik bacı, burda bibbilisi, bu bişirdi, bu düşürdü, bu aşırdı, bu dedi mənim payım hanı? Bu birisi dedi: qaqqala pişik apardı, tumanı düşən apardı...

Hətta Aqşin Ağkəmərli Güney mahalında uşaqların təqlid oyunlarından da bəhs edərək örnəklər gətirir. Onun təqdim etdiyi heyvan və quşları təqlid formalarından maraqlı bir mənzərə yaranır. Uşaqların toyuğun yumurtlama prosesi zamanı səs-küy salmasını, qarğaların qarıldamasını müşahidə edərək yamsılaması çox maraqlıdır. Onların dili ilə belə təqdim olunur:

*Qaq-qaq-qaq-qaq-qaq*
*Bir oğlan doğmuşam ağappaq,*
*İnanmırsan gəl, bax.*

Qarğalar qarıldıyanda isə səs-səsə verib deyirlər:

*Qarğa deyir qar-qar,*
*Sərçə deyir zəhrimar,*
*Qəcələ deyir, nə işin var?*

Uşaqlar xallı böcəyi ovcunun içinə qoyub bir barmağının istiqamətində hərəkət etdirərək səslənirlər:

*Əl-ələ, düymə belə,*
*Mən gedirəm babamgilə,*
*Babam bizə papuş alar,*
*Bir cüt sənə, bir cüt mənə,*
*Qarı nənə, uç-uç, bir də uç...*

Beləliklə, bu anda uçub gedən böcək sanki uşaqların istəyini həyata keçirir və onlara sevinc duyğuları bəxş edir... Yer bülbülü adlı başqa bir böcək də var ki, yerin altında yuva qazır. Uşaqlar bəzən bu böcəklə oynamaq üçün onun yuvasını barmaqla oyar və belə deyərlər:

*Aç qapını, mən gəldim, bülbül,*
*Aç qapını, mən gəldim.*

Hacıleylək səsini çıxardanda uşaqlar onun yuvasına yaxın toplaşıb deyirlər:

*Hacıleylək hacı eşqinə,*
*Bir damağın şaqqıldat,*
*On iki imam eşqinə,*
*Bir damağın şaqqıldat.*

***(davamı növbəti saylarımızda)***

**Esmira FUAD,**
**filologiya elmləri doktoru.**

Respublika .- 2023.- 18 mart.- S.10.